

*Həmzə Vəliməmmədov,*
*Əməkdar jurnalist.*

# ZİYALI ÖMRÜNÜN HEKAYƏTİ

**"Mən belə hesab edirəm ki, xalqımızın arasında həyatı müasirləri üçün, gələcək nəsillərə örnək ola biləcək ləyaqətli, təkrarolunmaz insanlar olub, var və olacaq".**

Bu sətirlər İmran Əbilovun "Araz" nəşriyyatında yenicə işıq üzü görmüş "Vətənə vurğun: ömürdən səhifələr" kitabında müəllifin ön sözündən götürülüb. Yeni nəşr avtobioqrafik əsərdir, respublikada yetərincə tanınmış ağsaqqal ziyalı, ictimai xadim, Əməkdar kənd təsərrüfatı işçisinin 83 illik mənalı və ləyaqətli ömür yolunu əks etdirir.

Kitabı oxuyub vərəqləri çevirdikcə müəllifin doğulduğu ölkəmizin dilbər guşəsi Masallı, Mahmudavar kəndi, Lənkəran Pedaqoji Məktəbində və Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda tələbəlik illəri, komsomol, partiya, sovet və təsərrüfat orqanlarında fəaliyyəti ilə tanış olursan. Imran müəllimə hər hansı vəzifə tapşırılıbsa etimadı doğruldub, el-obada hörmət və nüfuz sahibi olub.

Müəllif ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu həm birinci, həm də ikinci dövrün inanılmış, sınağdan çıxan kadrlardan biri olması ilə fəxr edərək yazır: "Heydər Əliyev MK-nın birinci katibi işləyərkən 1982-ci ilin mart ayında respublikada heyvandarlığın inkişafına dair plenum keçirilməli idi. Biz buna ciddi hazırlaşırdıq. Bu dövrdə mən onunla kabinetində iki dəfə görüşdüm. O, elə bil bu sahə üzrə akademik idi. Dedi ki, heyvandarlıq adi sahə deyil, böyük bir elm sahəsidir".

Kitabda qeyd edildiyi kimi, İmran müəllim respublika Kənd Təsərrüfatı nazirinin müavini işlədiyi illərdə (1969-1991) heyvandarlığın inkişafı üçün çox iş görüb. Onun təşəbbüsü və rəhbərliyi ilə komplekslər tikilib müasir avadanlıqla təchiz edilmişdi.

Yeni nəşrdəki yazılarda oxucu İmran müəllimin ictimai fəaliyyəti, xarici ölkələrə səfəri və bədii yaradıcılığı barədə ətraflı məlumat alır.

İnsanları dostsuz təsəvvür etmək çətindir. O adam xoşbəxtdir ki, etibarına, sədaqətinə, səmimiyyətinə güvəniləsi dostları var. İmran müəllimin bu keyfiyyətə malik dostları az olmayıb. Xalq şairi Bəxtiyar Vahabzadə, xalq yazıçısı İlyas Əfəndiyev, naşir Ağababa Rzayev, tanınmış ağsaqqal Rüstəm Səfərəliyev, iqtisad elmləri doktoru Əyyub İskəndərov, aşıq Pənah Pənahov, professor Zülfüqar Verdiyev, filologiya elmləri doktoru İmanverdi Əbilov, pedaqoq Mustafa Sadıqov belə dostlardan olublar. Onlar əbədiyyətə qovuşublar. Bu gün respublikanın bölgələrində neçə-neçə dostu yaşayır. Bakıya yolu düşənlər İmran müəllimlə görüşüb ötən illəri yada salırlar.

Kitabın bir bölməsi müəllifin xarici ölkələrə səfərlərinə həsr olunub. Ilk dəfə 1978-ci ilin payızında Sovet nümayəndə heyətinin tərkibində Hindistanda simpoziumda iştirak edib. Səfərdə iqtisadi əlaqələri möhkəmləndirmək sahəsində əməli işlər görülüb. Müəllif qeyd edir ki, Əhmədabadda mənə Quran bağışladılar. Həm də dedilər ki, burada müsəlmanlara münasibət yaxşı deyil.

İkinci səfər bir ildən sonra İsveçə baş tutur. Stokholmda Sosialist Əməyi Qəhrəmanı çoban Boran Quliyevlə Azərbaycan mədəniyyəti günlərinə qatılır. Orada adamların həyat səviyyəsi ilə maraqlanır. Bəstəkar Emin Sabitoğluya müraciətlə bu misraları yazır:




**Emin qardaş, sən Boranı axtarsan,**
**Ya aranda, ya dağlarda taparsan.**
**Mehman olsan o ürəkdən sevinər,**
**Mahnı qoşub elimizə apar sən.**

İmran müəllimin Misir xatirələri də oxucuda xoş ovqat yaradır. Bu ölkəyə səfəri 1985-ci ilin dekabrına düşür. Ehramlarla zəngin Qəzza şəhərini gəzib dolaşır, Qahirədə konqresdə iştirak edir, alimlərin, fermerlərin çıxışlarını dinləyir. Müəllif yazır: "Yeganə vəzifəli şəxs-nazir müavini məndim. Bu, bir az alovlu səslənirdi. Çünki xarici ölkələrdə nazir, nazir müavini çox böyük və hörmətli vəzifədir". Konqres başa çatır, dünyanın bir çox ölkələrindən gəlmiş nümayəndələrindən 6 nəfər, o cümlədən İmran Əbilov Misir Elmlər Akademiyasının fəxri diplomuyla təltif olunur. Səfərdən aldığı təəssüratı bu cümlə ilə bitirir: "İmam Hüseyn məscidini ziyarət etməyim Misirdə mənim ən böyük mənəvi qazancım oldu".

"Allaha inam özünü tanımaqdır". Kitabın bir yazısı belə adlanır. Islama bağlı olan müəllif Quran əhlidir. Ulu tanrıdan nazil olan hikmət, əxlaq, mənəviyyat kitabı barədə ürək sözlərini söyləyir, cavanları paklığa çağırır. 2012-ci ilin əvvəlində Məkkədə Kəbə evini, iki il sonra Məşhəddə Imam Rzanın qəbrini ailə üzvləriylə ziyarət eləyir.

El-obanın ağsaqqal sözünə, ağsaqqal nəsihətinə həmişə ehtiyacı olub. Ağsaqqal nüfuzu əsrlərdən bəri özünə yer taparaq Dədə Qorqud timsalında tariximizdə iz qoyub. Kitabdakı "Ağsaqqallar müdrik insanlardır" yazısında ulu öndər Heydər Əliyevin ağsaqqallıq missiyasından, onun respublikamızın çətin dövründə ağır yükün altına girib ellə birlikdə daşımasından, müdrik rəhbər kimi tarixə düşməsindən geniş danışılır. Qeyd edilir ki, danılmaz həqiqətdir, Milli Məclisin deputatı, zəngin idarəçilik təcrübəsinə malik Fəttah Heydərovun sədr olduğu respublika Ağsaqqallar Şurasının fəaliyyəti təqdir olunur, keçirilən tədbirlər maraqla qarşılanır. Ağsaqqalların və ağbirçəklərin yubileylərinin keçirilməsi, gənclərlə görüşlər, xarici ölkələrə səfərlər artıq ənənəyə çevirilmişdir. Ağsaqqallar Şurası Məclisinin iclaslarında bölgələrdəki təşkilatların təşəbbüs və təklifləri müzakirə edilib bəyənilir, icrasına əməli köməklik göstərilir.

Müəllif ötən əsrin əllinci illərində Lənkəran Pedaqoji Məktəbində təhsil alarkən ara-sıra şeirlər yazıb tələbə dostlarına oxuyub. Xalq şairi Səməd Vurğunla məktublaşıb. Böyük ədibin tələbə Imrana yazdığı məktubların birində deyilir: "Hörmətli yoldaş İmran Əbilov! Məktubunuzu aldım, çox şad oldum. Sizə və yoldaşlarınıza səadət və müvəffəqiyyətlər arzu edirəm. Məndən məktəbinizin müəllimlərinə xüsusi salam yetirməyinizi xahiş edirəm. Imza: S.Vurğun, Bakı".

Kitaba daxil edilən şeirləri müəllif ömrünün ahıl çağlarında qələmə alıb. "Düşürsən yada" şeirində oxuyuruq:

**Fikirlər haraya aparır məni,**
**Ayrıla bilmirəm düşüncələrdən.**
**Seyr etmək istərəm çölü, çəməni,**
**Könlüm çox uzaqdır əyləncələrdən.**

**Gəzdim qarış-qarış ana torpağı,**
**Heç doya bilmədim doğma elimdən.**
**Necə də şirindir ata ocağı,**
**Çıxmaz xatirələr kövrək qəlbimdən.**

Vətən hər kəsin doğulduğu yerdən başlanır. Insan ilk növbədə göz açdığı kəndi, vətəndaşı olduğu ölkəni yaxşı tanımalıdır. Boya-başa çatdığımız yurdun dağları, çayları, cığırları bizə əzizdir. Imran Əbilovun qələmi ilə Azərbaycanın dilbər guşəsi Masallı, abad Mahmudavar kəndinin təbiəti bir tablo kimi gözlərimiz önündə canlanır.

Ömür kitabında atalar sözlərindən, zərb-məsəllərdən yerli-yerində istifadə olunmuşdur. Səhifələrdə verilmiş şəkillər və illüstrasiyalar, sənədlər yazıların məzmununu tamamlayır. Memuar ədəbiyyatı seriyasından olan bu kitabın dili sadə və axıcıdır. Nəşrin redaktoru, poliqrafçılar kitabın səliqəli çapına, nəfis tərtibatına xüsusi diqqət yetirmişlər.

**"Vətənə vurğun: ömürdən səhifələr" kitabı haqqında təəssüratımı nəşrin redaktoru Şahrza Ağayevin bu sözləri ilə bitirmək istəyirəm: "İmran müəllim tale qismətinə düşən ömür payını təmiz, pak, ülvi duyğularla yaşayan və qəlbini, nurunu Azərbaycana həsr edən Vətən oğludur. Belə pak insanlar zaman keçdikcə həmişə xatirələr aləmində yaşayacaq".**